## SƏNGƏRDƏ DAYANAN ƏSGƏR

Oyanmışıq top səsinə,
İgidlərin nərəsinə,
Hərdənbir gözün yol çəkər,
Səngərdə dayanan əsgər!..

Sənsən bu torpağa ürək,
Xoş niyyətsən, əzəl dilək,
Sənsiz Vətən nəyə gərək?!
Xətadan yan keç, ol zirək,
Qamətimizi dərd bükər,
Səngərdə dayanan əsgər!..

Qorxutmur nə qar, nə yağış,
Səni verənə min alqış,
Yaman gəldi bu ilki qış,
Qarda çəkmənin içində,
Barmağını şaxta kəsər,
Səngərdə dayanan əsgər!

Vətənindi, solun-sağın,
Ürəyindi Qarabağın,
İrəvan əzəl torpağın,
Sən ağasan, "yan"lar nökər,
Səngərdə dayanan əsgər!..

Qayıtsanız həsrət bitər,
Əziyyətin getməz hədər,
Vətən qiyamətə qədər,
Bizimdi, çalarıq zəfər,
Səngərdə dayanan əsgər!..

## VƏTƏN HARAYI

Vətən, sənə yiyə duran,
Cəsarətli oğlun da var,
Düşmənlərə hiylə quran,
Oğulların ağlı da var.



■ Mayisə Əsədullaqızı

Vətən, sənin bu dərdinə,
Gülən də var, çəkən də var,
Qurban olaram mərdinə,
Min bir tədbir tökən də, var.

Vətən, sənə güvənəndə,
Şad gününə sevinəndə,
Hərdən belə deyinəndə,
Gözlərimi tökən də var!

## BİLİRSƏNMİ...

Bilirsən gecə nədir?
Bir sevgi nəğməsidir, sanki,
Yaxası açıldımı,
Astarı söküləcək.
Buz bağlamış öpüş, vüsal,
Bir leysantək,
Ulduzlardan töküləcək.
Milyard illər belə olub dünya,
Həsrət itər, vüsal yetər,
Hamı gedər,
Bircə Yer-Göy boşalmaz.
Gəlimli-gedimli dünya kimi,
İçi boşdu, qaranlığın, üfüqün...



kaspi.-2016.-10-12 dekabr.-S.23.